# Mirsultan ağa ocağı

**Mirsultan ağa, elə bil bu, dünyaya xeyirxahlıq üçün gəlmişdi. Sanki, taleyinə insanlara dayaq olmaq, sınmış könüllərə ruh vermək missiyası yazılmışdı. Onu tanıyan hər kəs üçün Mirsultan ağa, sadəcə, bir insan deyil, mərhəmətin, səbrin və ilahi işığın canlı təcəssümü idi.**

Biləsuvarın Əsgərabad kəndində yerləşən ziyarətgah bu gün də həmin işığın ünvanıdır. Buraya üz tutanların sayı-hesabı yoxdur. Hər gün yüzlərlə insan bu ocağa gələrək könül rahatlığı tapır, ürəyindəki dərdi bir anlıq da olsa unudur. Çünki bu məkan təkcə daş-divardan ibarət deyil - burada bir ömrün xeyirxahlıqla yoğrulmuş izi yaşayır.

Hacı Mirsultan ağa seyid, peyğəmbər nəslinin daşıyıcısı idi. Onun adını eşitmək belə insanların içində qəribə bir istilik oyadırdı. Üzündəki nur, baxışlarındakı sakitlik, sözlərindəki hikmət uşaqdan–böyüyə hamını cəlb edirdi. İnsanlar onu görəndə anlayırdılar ki, bu dünyada yaxşılıq hələ də yaşayır.

1933-cü ildə Yardımlı rayonunun Perimbel kəndində dünyaya gələn Mirsultan ağa Seyid Məhəmməd oğlu Mirsultanovun yolu sonradan Biləsuvarın Əsgərabad kəndinə düşmüşdü. Elə o gündən də onun məskunlaşdığı ev tədricən mənəvi ocağa, köməksizlərin pənah yerinə çevrildi. Qapısı heç vaxt bağlı olmadı; dərdi olan da, sevinci olan da bu qapını döydü.

Onu yaxından tanıyanlar yaxşı bilirdilər: Mirsultan ağa yalnız xeyirxahlıq üçün yaşayırdı. Kimsəsizlərin əlindən tutmaq, yolunu azmışa doğru yol göstərmək, ümidsizə ümid olmaq onun həyat fəlsəfəsi idi. Ömrünün son anına qədər də əqidəsindən dönmədi. İnsanlar çətinliyə düşəndə ona sığınar, sözündən təsəlli, baxışından güc alardılar.

Ağanın övladlarına verdiyi ata nəsihətləri bu gün də bir həyat dərsidir: "Dostunuz çox olsun. Qapınıza pənah gətirəni, sizdən kömək istəyəni heç vaxt naümid qaytarmayın".

Mirsultan ağa müqəddəsliyin səssiz nişanəsi idi. Bəlkə də elə buna görə insanlar onu bu qədər sevirdilər. Onu bir dəfə görən, bir neçə dəqiqə söhbət edən insan bu görüşü ömrü boyu unutmurdu.

Bu yaxşılıqlardan biri illər sonra belə dillər əzbəri olan bir hadisədə öz əksini tapır. Bir gün bazarda pulunu itirib çıxılmaz vəziyyətə düşən bir qadına səssizcə əl uzatmışdı. Heç kimin görmədiyi, heç kimin anlamadığı anda…

Mirsultan ağa ilə bağlı belə xatirələr yüzlərlədir. Onun üçün hər səhər yalnız yaxşılıq etmək üçün açılırdı. Oğlu Miralim bu gün də atasından qalan əşyaları qoruyub saxlayır. Avtomobilləri, geyimləri, pul qabısı, imzalı əskinaslar və ən əsası – bir saat yarımlıq səs yazısı. Bu səs, sadəcə bir xatirə deyil, hikmətin, ruhun və ata nəfəsinin yaşadığı mirasdır.

Uca Yaradan bu xeyirxah insanı böyük bir ailə ilə mükafatlandırmışdı - 7 oğul, 5 qız. Hər biri bu ocağın adını öz əməlləri ilə uca tutur, ağanın yolunu davam etdirir. Onların həyatına işıq salan məhz bu nəsihətlərdir.




Mirsultan ağa ömrünü şərəflə yaşadı. Hər gününü insanlara sevinc bəxş etməklə, könüllərə toxunmaqla keçirdi. Axırıncı həcc ziyarəti isə sanki onun taleyinin son səhifəsi idi. 1993-cü ilin iyun ayının 4-də Səudiyyə Ərəbistanının Mina səhrasında bütün ayinlərini yerinə yetirdikdən sonra haqq dünyasına qovuşdu.

Mirsultan ağa cismani olaraq aramızda olmasa da, onun ruhu bu ocaqda, bu dualarda, bu xatirələrdə yaşayır. Çünki insanı yaşadan ömrünün uzunluğu deyil – qoyduğu izdir.

***Müşfiq MİRZƏ***
***XQ***

Xalq qəzeti .- 2025.- 19 dekabr (№267).- S.12.